	Tələbələr üçün akademik dürüstlük siyasəti				
	Qəbul edilmişdir: **14.09.2026**	*BAAK Pedaqoji Şurasının qərarı: 14.09.2026 № PŞ01/09-26*	**Təsdiq edilmişdir:** 14.09.2026	Direktor : *A.N.Hüseynova 14.09.2026*	**Nüsxə sayı (əsli):** *1*
	Kollecdaxili Sənəd Reyestrinə daxil edilmişdir	**Tarixi:** *14.09.2026*	**Reyestr №** T0150010	**Əmr:**	**Səhifə sayı:** **Səhifə:** *1 /08*

BAKI AVRASİYA KOLLECİ

QƏBUL EDİLMİŞDİR:

BAAK Pedaqoji Şurasının "14" sentyabr 2026-cı il tarixli qərarı ilə (protokol № PŞ01/09-/26)

Təsdiq edirəm:

Direktor _____ Aytən Hüseynova

"14" 09 2026-cı il

TƏLƏBƏLƏR ÜÇÜN AKADEMİK DÜRÜSTLÜK SİYASƏTİ

BAKI – 2026

1. Ümumi müddəalar

Bu Akademik Dürüstlük Siyasətinin (bundan sonra – Siyasət) əsas məqsədi Bakı Avrasiya Kollecində (bundan sonra – Kollec) tənqidi təfəkkürə yiyələnmiş, innovativ, ardıcıl olaraq özünü təkmilləşdirən, dürüst, həmrəylik nümayiş etdirən, məsuliyyətli, mənəvi normaya və başqalarının hüquqlarına hörmətlə yanaşan, beynəlxalq miqyasda elmi tərəqqiyə fayda verən şəxsiyyətlər formalaşdırmaqdır.

Bu məqsədə nail olmaq üçün hazırkı sənəd Kollecin Etik Davranış Qaydalarında əksini tapan akademik dürüstlük prinsiplərinə aydınlıq gətirir. Sənəd resurslardan, məlumatlardan və ideyalardan düzgün istifadə şərtlərini müəyyən edir, akademik etika konseptini formalaşdırır və qoyulmuş dürüstlük standartları pozulduğu halda həyata keçiriləcək prosedurları və tətbiq olunacaq prinsipləri nizamlayır.

2. AKADEMİK DÜRÜSTLÜYÜN ƏSAS DƏYƏRLƏRİ, MƏQSƏDLƏRİ, VƏZİFƏLƏRİ VƏ PRİNSİPLƏRİ

2.1. Akademik dürüstlüyün əsas dəyərləri

Kollecin daxilində akademik dürüstlük mühiti dürüstlük, etimad, ədalət, hörmət, məsuliyyət və cəsarət kimi təməl qaydalara əsaslanır.

Bu qaydalar ümumilikdə təhsil zamanı məlumatların, yekun nəticələrin və istifadə olunan mənbələrin, eləcə də müəllif hüquqlarının dəqiq şəkildə qeyd edilməsini, başqasının əməyinin nəticələrinin saxtalaşdırılmasının, mənimsənilməsinin və ya müxtəlif üsullarla təhrif olunmasının, həmçinin real akademik nəticələrin təqdim olunmasını, Kollecin bütün üzvlərinin tədris prosesini layiqincə yerinə yetirməsinə, təqdim olunan tapşırıqların düzgünlüyünə və qiymətləndirmə prosesinin obyektivliyinə əsaslanan qarşılıqlı etimad mühitinin qurulmasını, akademik fəaliyyət zamanı mövcud qaydalara riayət olunması, kənar təsirlərdən uzaq durulması, heç bir ayrı-seçkiliyə yol verilmədən hər kəsə qarşı obyektiv və ardıcıl münasibət göstərilməsini, Kollecin hər bir üzvünün şəxsi ləyaqətinə, hüquqlarına, baxışlarına və mövqeyinə, müəlliflik hüquqlarına, eləcə də intellektual və akademik fəaliyyətinə hörmətlə yanaşılmasını, hər bir şəxsin öz akademik fəaliyyətinə, təqdim etdiyi faktların doğruluğuna, istinad etdiyi mənbələrə və qəbul etdiyi qərarlara görə şəxsən cavabdeh olmasını və akademik dürüstlük prinsiplərinin pozulmasına qarşı barışmaz mövqe sərgilənməsi, təzyiqlərə və qeyri-etik davranışlara boyun əyilməməsi, eləcə də zərurət yaranarsa, pozuntular barədə məlumat verilməsini özündə ehtiva edir.

2.2. Siyasətin əsas məqsədləri

Siyasətin qarşıya qoyduğu əsas hədəfləri kollec mühitində akademik dürüstlük mədəniyyətinin yaradılması və gücləndirilməsindən, təhsilalanlarda akademik və tədris etikasına şüurlu və məsuliyyətli yanaşma vərdişlərinin formalaşdırılmasından, plagiat, saxtakarlıq,aldatma və digər oxşar akademik pozuntuların qarşısının alınmasından,

rəqəmsal texnologiyalardan və süni intellekt (Sİ) vasitələrindən etik, şəffaf və məsuliyyətli şəkildə istifadə qaydalarının müəyyənləşdirilməsindən və müəllif hüquqlarının və intellektual mülkiyyətin etibarlı şəkildə qorunmasının təmin edilməsindən ibarətdir.

2.3. Siyasətin əsas vəzifələri

Siyasət çərçivəsində reallaşdırılması nəzərdə tutulan əsas vəzifələri kollecin bütün tədris istiqamətlərində akademik dürüstlük prinsiplərinin tətbiqinə əlverişli zəmin yaratmaq, qaydaların pozulmasının qarşısını almaq və maarifləndirmə aparmaq məqsədilə qabaqlayıcı tədbirlər həyata keçirmək, tələbələrdə elmi yazı qaydalarına düzgün riayət etmək və istinad mənbələri ilə işləmək bacarıqlarını formalaşdırmaq, akademik pozuntu iddialarının obyektiv, şəffaf və tərəfsiz araşdırılması üçün mexanizmlər qurmaq və tətbiq etmək, qayda pozuntusu hallarına qarşı adekvat, proporsional və ədalətli intizam tədbirlərinin görülməsini təmin etmək və təhsilalanların akademik dürüstlük mövzularında məlumatlılıq səviyyəsini yüksəltməkdir.

2.4. Akademik dürüstlüyün əsas prinsipləri

Siyasət müəlliflik hüquqlarına hörmət, məsuliyyət, akademik azadlıq, məxfilik və məlumatların qorunması və prosessual ədalət kimi təməl prinsiplər əsasında icra olunur: yəni ümumilikdə özgələrinin fikir, mətn, ideya, məlumat və intellektual mülkiyyət məhsullarından istifadə edərkən müəllifin və mənbənin aydın şəkildə göstərilməsi, hər bir şəxsin öz akademik fəaliyyətinin yekun nəticələrinə görə tam cavabdehlik daşıması, hüquqi və etik çərçivələr daxilində şəxsi fikir, ideya və tədris yanaşmalarının sərbəst ifadə olunması, tədris zamanı şəxsi, məxfi və xidməti xarakterli məlumatların məxfiliyinin gözlənilməsi və akademik pozuntu halları araşdırılarkən tərəflərin izahat vermək, müdafiə olunmaq və verilmiş qərardan apellyasiya şikayəti etmək hüququnun təmin olunması kimi başa düşülür.

3. AKADEMİK DÜRÜSTLÜK PRİNSİPLƏRİNİN POZULMASI

3.1. Anlayış

Akademik dürüstlük pozuntusu – bu Siyasətdə, Kollecin digər daxili nizamnamələrində və ya konkret akademik tapşırıq üzrə təyin olunmuş şərtlərdə əksini tapan qaydalara zidd olaraq, qəsdən və ya ehtiyatsızlıq üzündən edilən hərəkət və ya hərəkətsizlikdir.

3.2. Akademik dürüstlük pozuntularının əsas növləri

3.2.1. Plagiatlıq;

Plagiat aşağıdakı hallarda baş vermiş sayılır:

a. Başqasına məxsus mətn, fikir, ideya, mülahizə, arqument və digər materialları müvafiq mənbəyə istinad etmədən özününkü kimi təqdim etmək;

b. Mənbədən sitat gətirərkən müvafiq sitatlaşdırma qaydalarına riayət etməmək;

c. Xarici dildən tərcümə edilmiş materialları mənbəyə istinad etmədən öz işi kimi qələmə vermək;

ç. Özgəsinin mülahizə və ya arqumentlərindən lazımi istinad vermədən istifadə etmək;

d. İnternetdən və ya digər rəqəmsal resurslardan götürülmüş məlumatları müəllifə istinad etmədən istifadə etmək;

e. Başqa şəxs tərəfindən yazılmış akademik işi tam və ya qismən mənimsəyərək öz adına təqdim etmək.

3.2.1.1. Plagiat edilə bilən materiallar

Mətnlər, cədvəllər, şəkillər, diaqramlar, proqram kodları, məlumat bazaları, audio-vizual resurslar, təqdimatlar, tərcümələr və digər intellektual məhsullar plagiat edilə bilən obyektlər sayılır.

3.2.2. Gizli sövdələşmə və icazəsiz əməkdaşlıq;

3.2.2.1. **Sövdələşmə və icazəsiz əməkdaşlıq;**

Sövdələşmə və icazəsiz əlbirlik aşağıdakıları əhatə edir:

a. Qiymətləndiriləcək tapşırığı başqa şəxsin əvəzinə yerinə yetirmək;

b. Müəllim tərəfindən fərdi şəkildə işlənməsi tapşırılan işdə başqaları ilə icazəsiz əməkdaşlıq etmək;

c. Öz işini başqa şəxsin mənimsəməsi məqsədilə onun istifadəsinə vermək

ç. Yekun qiymətə təsir etmək məqsədilə digər şəxslərlə qeyri-etik razılaşmalara girmək

3.2.3. Aldatma və aldatmaya cəhd;

3.2.3.1. **Aldatma**

Aldatma hallarına aşağıdakılar daxildir:

a. Bilərəkdən yalan və ya saxtalaşdırılmış faktlar təqdim etmək;

b. Digər tələbənin işindən icazəsiz yararlanmaq;

c. Əvvəllər qiymətləndirilmiş işi icazə almadan yenidən təqdim etmək;

ç. Tapşırığın gecikdirilməsinə haqq qazandırmaq üçün yalan və saxta bəhanələr gətirmək;

d. Fərdi icra olunmalı tapşırığı bir neçə nəfərlə birgə hazırlamaq;

e. Qiymətləndirmə zamanı başqa şəxslərə qanunsuz yardım etmək;

ə. Özgəsinin əməyini öz işi kimi təqdim etmək.

3.2.4. Məlumat, nəticə və sənədlərin saxtalaşdırılması;

Aşağıdakı hərəkətlər ciddi akademik pozuntu sayılır:

a. Sorğu, müsahibə və ya müşahidə nəticələrini saxtalaşdırmaq və ya qəsdən dəyişmək;

b. Gerçəkdə var olmayan mənbələr uydurmaq;

c. Mənbədə olmayan məlumatı həmin mənbəyə aid etmək;

ç. Statistik verilənləri və ya nəticələri təhrif etmək;

d. Qiymətləri və ya akademik göstəriciləri saxtalaşdırmaq;

e. Rəsmi akademik sənədlərə və qiymətləndirmə vasitələrinə qəsdən dəyişiklik etmək və ya zərər vurmaq.

3.2.5. Müəllifliyin təhrif olunması;

3.2.6. İcazə verilməyən yardım və vasitələrdən istifadə;

3.2.7. Akademik işlərin pulla, həmçinin maddi və ya digər faydalar müqabilində əldə edilməsi, satılması və ya başqasına hazırladılması;

a. Kurs işi, layihə və ya digər tapşırıqları pulla, həmçinin maddi, mənəvi və sair nemətlərlə kənar şəxslərdən əldə etmək;

b. Başqa şəxs üçün ödənişli və ya ödənişsiz akademik iş hazırlamaq;

c. Hazır akademik işlərin alqı-satqısına və ya yayılmasına vasitəçilik etmək;

ç. Nəticələrə təsir etmək məqsədilə akademik işləri və ya cavabları qanunsuz yolla əldə etmək.

3.2.8. Qiymətləndirmə prosesinə müdaxilə və qeyri-etik təsir göstərilməsi;

3.2.8.1. **Qiymətləndirmə prosesində icazəsiz vasitələrdən istifadə**

İmtahan, kollokvium, test və fərdi tapşırıqlar zamanı müəllim və ya Kollec tərəfindən qadağan edilmiş:

a. Kitab, qeydlər və ya elektron resurslar;

b. Telefon, planşet, kompüter və digər rəqəmsal cihazlar;

c. İnternet şəbəkəsi;

ç. Süni intellekt proqramları;

d. Kənar şəxslərin köməyi – akademik dürüstlük pozuntusu kimi qiymətləndirilir.

3.2.9. Akademik işlərin təkrar təqdim edilməsi və özünüplagiat;

Əvvəllər təqdim edilmiş və ya qiymətləndirilmiş materialın müəllimin və ya müəllifinin icazəsi olmadan yeni iş kimi təqdim olunması akademik dürüstlük pozuntusu sayıla bilər.

3.2.10. Süni intellekt alətlərindən müəyyən edilmiş qaydalardan kənar istifadə;

3.2.11. Müəlliflik və intellektual mülkiyyət hüquqlarının pozulması;

3.2.12. Bu Siyasətin ruhuna və prinsiplərinə zidd olan digər hərəkətlər.

3.2.13. Məlumatların və nəticələrin saxtalaşdırılması

4. SÜNİ İNTELLEKTDƏN İSTİFADƏNİN AKADEMİK VƏ ETİK PRİNSİPLƏRİ

4.1. Ümumi anlayışlar;

4.1.1. Süni intellekt (Sİ) – insan intellektinə xas olan öyrənmə, təhlil, mətn tərtibatı, problem həlli kimi fəaliyyətləri müəyyən səviyyədə həyata keçirən rəqəmsal texnologiyalardır.

4.1.2. Generativ Sİ – mətn, təsvir, səs, video, proqram kodu və digər məzmunları avtomatik generasiya etmək imkanına malik alətlərdir.

4.1.3. Kollec özlüyündə tədris işlərində Sİ vasitələrindən məsuliyyətli, etik və məqsədəuyğun istifadəni dəstəkləyir.

4.1.4. Sİ-dən istifadə özlüyündə pozuntu deyil, pozuntu halları Sİ-dən tapşırığın şərtlərinə, müəllimin tələblərinə və bu Siyasətə zidd formada istifadə edildikdə yaranır.

4.2. Sİ-dən istifadənin əsas prinsipləri

Sİ alətlərindən istifadə zamanı aşağıda qeyd edilmiş prinsiplərə riayət olunmalıdır:

a. Şəffaflıq – tədris prosesində və tədrislə əlaqəli işlərdə Sİ-dən istifadə edildikdə bu barədə məlumat verilməsi;

b. Məsuliyyət – Sİ tərəfindən hazırlanan nəticələrə görə yekun cavabdehliyin təhsilalanlarda olması;

c. Dəqiqlik – Sİ-nin təqdim etdiyi məlumatların doğruluğunun mütləq şəkildə yoxlanılması;

ç. Müəlliflik hüquqlarına hörmət göstərilməsi;

d. Gizliliyin, məxfiliyin və məlumatların qorunması;

e. Akademik müstəqillik – Sİ-nin tələbənin şəxsi təfəkküründü və təhlil qabiliyyətini əvəz etməməsi;

ə. Bərabərlik və ədalət – Sİ istifadəsinin qiymətləndirmə qaydalarına tam uyğunlaşdırılması.

4.3. Tədris prosesində Sİ istifadəsi

4.3.1. Müəllim fənnin spesifikasiyasından və tapşırığın məqsədindən asılı olaraq Sİ-dən istifadəyə tam icazə verə bilər, müəyyən çərçivələrdə icazə verə bilər, həcm və forma baxımından məhdudlaşdıra bilər, istifadənin açıqlanmasını tələb edə bilər və tapşırıq və ya imtahan zamanı tam qadağan edə bilər.

4.3.2. Sİ istifadə şərtləri barədə tələbələrə tapşırıq verilərkən əvvəlcədən dəqiq elan olunmalıdır.

4.3.3. Şərtləri müəyyənləşdirərkən müəllim tapşırığın mahiyyətini, tələbədən gözlənilən fərdi töhfəni və qiymətləndirmə meyarlarını nəzərə almalıdır.

4.4. İcazəli istifadə

Sİ-dən istifadə müəllim tərəfindən qadağan olunmayıbsa ilkin ideyaların formalaşdırılması, mətnin strukturunun qurulması, dil, stilistika və qrammatika üzrə redaktə dəstəyi, mövzuya dair ümumi izahlar və nümunələr almaq, kodlaşdırma və texniki problemlərin həlli, təhsil prosesini dəstəkləyən digər yardımçı fəaliyyətlər sahələrində işlədilə bilər:

4.5. Qadağan edilmiş və ya yolverilməz istifadə

Sİ tərəfindən hazırlanmış işi öz işi kimi təqdim etmək, Sİ-dən istifadənin qadağan edildiyi tapşırıqlarda ondan istifadə etmək, tələbə tərəfindən heç bir intellektual əmək sərf

edilmədən Sİ tərəfindən yaradılmış məzmunu birbaşa təqdim etmək, Sİ-nin uydurduğu saxta mənbələri real kimi göstərmək, Sİ tərəfindən verilən məlumatları yoxlamadan fakt kimi istifadə etmək, Sİ vasitəsilə özgəsinin akademik işini və ya müəllifliyini təhrif etmək, Qiymətləndirmə zamanı Sİ-dən gizli istifadə edərək haqsız üstünlük qazanmaq pozuntu kimi qiymətləndirilir.

4.6. Sİ istifadəsinin açıqlanması

4.6.1. Tələbə akademik işdə Sİ-dən əhəmiyyətli dərəcədə istifadə edibsə (əks qayda müəyyən edilməyibsə), işlətdiyi Sİ alətini və istifadə məqsədini mütləq göstərməlidir.

4.6.2. Sİ-nin bəyan edilməsi tələbəni şəxsi akademik cavabdehlikdən azad etmir.

4.6.3. Müəllim istifadə olunmuş Sİ alətinin adını, məqsədini və daxil edilmiş sorğuları (promptları) tələb edə bilər.

4.7. Sİ tərəfindən yaradılmış məlumatların yoxlanılması

4.7.1. Sİ sistemlərinin verdiyi məlumatlar potensial olaraq yanlış, natamam, köhnəlmiş və ya uydurma ola bilər.

4.7.2. Təhsilalan Sİ tərəfindən təqdim edilən faktları, statistik göstəriciləri, sitatları və elmi məlumatları mötəbər mənbələr əsasında yoxlamalı, mövcud olmayan mənbələrin və müəlliflərin Sİ tərəfindən uydurulmuş şəkildə akademik işdə istifadəsinə yol verməməlidir.

4.8. Məxfilik və məlumatların qorunması

4.8.1. Sİ platformalarına Kollecə, əməkdaşlara və tələbələrə aid konfidensial, xidməti və ya şəxsi məlumatların daxil edilməsi qadağandır.

4.8.2. Təhsilalanlar fərdi məlumatların, müəlliflik hüquqlarının və xidməti sirrin qorunmasına cavabdehdirlər.

4.9. İmtahan zamanı Sİ istifadəsi

İmtahan, kollokvium və qiymətləndirmə zamanı Sİ vasitələrindən istifadə etmək qəti qadağandır.

5. TƏHSİLALANLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

5.1. Təhsilalanların hüquqları

Təhsilalanların tədris prosesində öz fikirlərini sərbəst ifadə etmək, tədrislə bağlı məlumatlar, ideyalar əldə etmək və yaymaq azadlığı, bu Qaydaların müddəalarının pozulması ilə bağlı əsassız ittihamlardan bütün qanuni vasitələrlə qorunmaq, ədalətli və obyektiv qiymətləndirmə almaq, öz fikirlərini ifadə etmək və təqdim etdikləri işlərdə yaradıcı yanaşma tətbiq etmək, etik qaydalar çərçivəsində kömək ve dəstək tələb etmək,

akademik fəaliyyətlərdə başqalarının hüquqlarını pozmadan ədalətli rəqabət aparmaq hüquqları vardır.

5.2. Təhsilalanların vəzifələri

-Tədris tapşırıqlarını yerinə yetirən zaman akademik dürüstlüyə ciddi riayət etmək.
-Yalnız etibarlı məlumat mənbələrindən istifadə etmək.
-Qiymətləndirilən bütün növ işləri müstəqil şəkildə yerinə yetirmək.
-Daxili qaydalara ciddi riayət etmək.
-Akademik işlərdə plagiat və saxtakarlığa yol verməmək.
-Yazılı işlərdə mənbələrə düzgün istinad etmək.
-İmtahanlarda, tapşırıqların və layihələrin yerinə yetirilməsində dürüst davranmaq.
-Akademik mühitdə müəllimlərə, digər təhsilalanlara və iştirakçılara hörmətlə yanaşmaq;
-Sİ vasitələrindən yalnız müəyyən olunmuş çərçivədə istifadə etmək;
- Akademik pozuntulara qəti şəkildə şərait yaratmamaq.

6. AKADEMİK DÜRÜSTLÜYÜN TƏMİN EDİLMƏSİ VƏ PROFİLAKTİK TƏDBİRLƏR

6.1. Kollec yalnız pozuntuları cəzalandırmaqla kifayətlənməməli, onların yaranma səbəblərini aradan qaldıran profilaktik tədbirlər görməlidir.

6.2. Bu istiqamətdə Kollec:

a. Vaxtaşırı maarifləndirici proqramlar təşkil edir;
b. Tələbələrə akademik yazı və istinad mədəniyyətini aşılayır;
c. Təhsilalanların Sİ, akademik dürüstlük və etik qaydalar üzrə biliklərini mütəmadi olaraq yeniləyir;
d.Yoxlama üçün müvafiq qaydada anti-plagiat və rəqəmsal proqramlardan yararlanır;
e. Qaydaların hamı üçün əlçatan olmasını təmin edir;
f. Siyasəti müntəzəm olaraq yeni texnoloji çağırışlara uyğun təkmilləşdirir.
6.3. Maarifləndirmə tədbirləri xüsusilə birinci kurs tələbələri üçün üstünlük təşkil edə bilər.

7. YEKUN MÜDDƏALAR

7.1. Bu Siyasət Kollecdə akademik dürüstlük etik, və obyektiv təhsil mühitinin formalaşması üçün əsasdır. Tələbələr öz bilik və bacarıqlarına arxalanmalı, başqalarının əməyinə hörmətlə yanaşmalı və akademik dürüstlük qaydalarına birmənalı və mütəmadi şəkildə riayət etməlidirlər.